Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Məhv edilən sadəcə otlaqlar deyil, ekologiyamıza ağır zərbələr vurulur...

**Bu günlərdə Şabran rayonunda olarkən çox qəribə hadisə ilə rastlaşdıq. Dağ kəndlərinə yaxın ərazidə yaşayan yerli sakinlər bildirdi ki, yaşadıqları ərazidə təbiətə ciddi ziyan dəyib, hətta vəziyyət ekoloji fəlakət halındadır. Bizə əvvəl yamyaşıl olan, ind isə bozarmış dağ yamaçlarını göstərdilər.**

Hətta bildirdilər ki, əvvəl yamyaşıl olan, adamın sinəsinə qədər qalxan yovşanların belə kökü kəsilib. Bunun səbəbini otlaqlardan düzgün istifadə edilməməsi ilə izah etdilər. Xüsusilə də bölgədə fermer təsərrüfatlarının artması nəticəsində yay və qış otlaq rejiminə riayət olunmaması amilinin bu məsələdə ciddi rol oynadığını bildirdilər. Bizim də müşahidələrimiz göstərdi ki, bu sahəyə ciddi nəzarətin olunmaması çox ciddi problemlərin yaranmasına səbəb olub.

Problemin kökünü araşdırdıqda məlum olur ki, mövcud torpaqların əsasən icarə yolu ilə fermerlərə verildiyi Azərbaycanda yarımköçəri maldarlığın mövcud olduğu, heyvanların yayda dağlara, qışda isə qışlaqlara aparıldığı halları mövcudur. Qoyunçuluq və maldarlıq təsərrüfatı ilə məşğul olan fermerlər mal-qaranın sayını artırdıqca, otlaq sahələri daha çox deqradasiyaya uğrayır. Fermerlər, çobanlar yaxşı ot olan yerlərdə mal-qara otarırlar. Artıq bu ənənəvi hal alıb. Sovet dövründə tətbiq olunan normaya görə, bir hektarda 4 qoyun otarılmalı idi. Ancaq indi normadan çox heyvan saxlanılır. Deməli, bir hektara təxminən 20 dəfə çox mal-qara düşür. Yaylaqların və meşələrin idarə olunması ilə bağlı beynəlxalq aləmdə qabaqcıl təcrübələr mövcuddur və Azərbaycanın bununla bağlı layihələrə ehtiyacı var. Bu, torpaqların deqradasiyaya uğramasının və çox istifadə olunmasının qarşısının alınmasına, meşə, yaylaq, qışlaq torpaqlarının səmərəli idarə olunmasına imkan verəcək.

### Səbəb heyvanların yem üçün gəzdikləri sahələrin get-gedə daralması, otlaqların azalmasıdır

Ölkəmizdə kənd təsərrüfatı, o cümlədən, heyvandarlıq sahəsi sürətlə inkişaf edir, təsərrüfatlarda saxlanılan mal-qaranın sayı da durmadan artır. Lakin bunun fonunda respublikada otlaq ərazilərinin kəskin azalması problemi özünü göstərməkdədir.

Kənd yerlərimizdəki heyvan saxlanılan əksər təsərrüfatlarda, eləcə də həyətyanı sahələrdə kiçicik müşahidə aparmaq yetər ki, bu təzahürləri hiss edəsən.

Uzun illər heyvandarlıqla məşğul olan Şabran rayon sakini bildirdi ki, gözünü açandan bu işlə məşğuldur. Onun müşahidələrinə görə, əvvəllər, məsələn, 10-15 il qabaq, qoyun-quzu örüşlərdə doyunca otlaya bilirdisə, son illər heyvanlar çöldən ac gəlir. Səbəbi isə heyvanların yem üçün gəzdikləri sahələrin get-gedə daralması, başqa sözlə, otlaqların azalmasıdır: "Dədə-babadan qoyun saxlayırıq. Əvvəllər heyvanı buraxırdın, özü gedib otlayırdı, hətta gözdən itirdi, qayıdanda da tox gəlirdi. İndi onlar düz-əməlli otluq da tapa bilmirlər, axşam tövləyə yarıac qayıdırlar, məcburuq əlavə yem tədarük edək. Bu da onun məhsulunun maya dəyərini qaldırır. Otlaqların çatışmaması özünü göstərir".



Məsələ ilə bağlı söhbətləşdiyimiz bir çox ekspertlər deyir ki, problemə kompleks şəkildə yanaşmaq lazımdır. Adının çəkilməsini istəməyən bir kənd təsərrüfatı mütəxəssisi qəzetimizə bildirdi ki, son dövrlər respublika üzrə istər yay, istərsə də qış otlaqlarının azalması bir çox amillərin təsiri ilə baş verib: "Əlbəttə, səbəb ilk növbədə bu sahədə nizamın pozulması, təbii otlaq ərazilərimizin xeyli hissəsinin uzun illər erməni işğalına məruz qalması və bundan doğan digər fəsadlarla bağlıdır.

Uzun illər ərzində erməni işğalı altında qalan 20 faizlik ərazimizin böyük hissəsi otlaqlar, özü də əsasən yay otlaqlarıdır. Odur ki, hazırda heyvandarlıqda, necə deyərlər, yük daha çox qış otlaqlarının payına düşüb. 1990-cı ilədək respublika üzrə 1 hektar otlaq sahəsinə 7-8 baş heyvan düşürdü, indi bu göstərici 30-40 arası dəyişir. Digər tərəfdən, son 30 ildə təsərrüfatlarda saxlanılan heyvanların sayı sürətlə artırılıb. Yay otlaqlarının qıtlığı və qış otlaqlarının həddsiz yüklənməsi bu ərazilərin səhralaşması təhlükəsi də yaradır. Kənd təsərrüfatı regionu olan Qərb bölgəsində eroziyaya məruz qalan otlaqlardan 370 hektar əraziyə və yaxın zamanlara kimi 72 növ bitki örtüyünə malik olan Ceyrançöl qış otlaq sahəsini göstərmək olar. Bu sahələr bir neçə il bundan əvvələ kimi normal vəziyyətdə olsa da, son illərdə burada bəslənilən heyvanların sayının kəskin artması torpaqların keçəlləşməsinə gətirib çıxarıb".

Mütəxəssis həmçinin antropogen faktorlar, yəni insan fəaliyyəti nəticəsində otlaqların bir qisminin məhv edildiyini də vurğulayır:

"Hazırkı dövrdə heyvanların otlaq arealının daralmasında antropogen təsirlər də böyük rol oynayır. Məsələn, bir çox hallarda ənənəvi qış-otlaq funksiyalı torpaqlarda müxtəlif obyektlər, cürbəcür texniki qurğular tikirlər və bu sahələr insan basqısına davam gətirməyərək məhv olur. Və yaxud, keçmiş yay otlaqlarında indi xeyli istirahət məkanları salınıb. Bunlar, əlbəttə, yaşadığımız dövrün diqtə etdiyi, insanların azad iqtisadi fəaliyyəti ilə də bağlı olan xüsusiyyətlərdir".

Mütəxəssis onu da qeyd edir ki, dünya təcrübəsinə görə, otlaqları azalan ölkələrdə, təsərrüfatlardakı mal-qaranın sayından daha çox, onun cinsinin daha məhsuldar olması əsas götürülür və bir növ, "oturaq", yəni fermada yemlə bəslənən heyvanların saxlanılmasına üstünlük verilir. Əks halda, yeni təsərrüfatlarda iri və xırda buynuzlu mal-qara sayının durmadan artırılması artıq ekoloji fəsadlar da yarada bilir".

Hesab edirik ki, əlaqədar qurumlar bu sahəyə çox ciddi fikir verməlidir. Belə olmasa, bizim üzləşdiyimiz problem əsl ekoloji fəlakət halına gəlib çatacaq.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**